DÖVLƏT VERGİ XİDMƏTİ

# Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbzlə fəaliyyət göstərənləri işə cəlb edirsiniz?

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən**

**01.01.2020-ci il tarixdən etibarən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz"** əsasında fəaliyyət göstərən şəxsi işə cəlb etdiyiniz halda, cəlbolunma dövrü üzrə onun tərəfindən həmin qəbzin əldə olunmasını təmin etməlisiniz.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

## Qeyd edilən vəzifənin yerinə yetirilməməsi maliyyə sanksiyasına səbəb olur

**Belə ki,**

- aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olan şəxslərin;
- foto, audio-video sahəsində məşğul olan şəxslərin;
- iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslərin (ofisiantın) fəaliyyətə başlayanadək **"Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz"** əldə olunmadan işlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə işəgötürənə (vergi orqanında uçotda olan sifarişçiyə) **hər bir belə şəxs üzrə təqvim ili ərzində** belə hala
  - **birinci dəfə** yol verdikdə **2.000** manat;
  - **ikinci dəfə** yol verdikdə **4.000** manat;
  - **üç və daha çox dəfə** yol verdikdə **6.000** manat

  **məbləğində maliyyə sanksiyası tətbiq edilir.**

**Qeyd:** “Sosial sığorta haqqında” Qanunda “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz”lə bağlı ediləcək dəyişikiklərdən sonra həmin qəbz alınarkən hesablanmış vergi ilə yanaşı, eyni zamanda məcburi dövlət sosial sığorta haqqının da ödənilməsi nəzərdə tutulur.